*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 iyul 2020-ci il № 44 (2462) Qiymətı 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Ermənistanın hərbi infrastrukturunun dəqiqliklə vurulması müasir silahlar hesabına mümkün olub

*İyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimi keçirilib.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təqdimat mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış edərək mənzillər və avtomobillərlə təmin olunan şəhid ailələrini və müharibə əlillərini təbrik edib. Ölkə başçısı qeyd edib ki, atılan addım dövlətin bu kateqoriyadan olan insanlara növbəti diqqətinin təzahürüdür. Prezident İlham Əliyev bu istiqamətdə görülən işlərlə bağlı statistik rəqəmləri görüş iştirakçılarının diqqətinə çatdırıb. Dövlət başçısı qeyd edib ki, 8 mindən çox şəhid ailəsi, müharibə əlili mənzillərlə təmin edilib və bu kateqoriyadan olan şəxslərə 7 minə yaxın avtomobil verilib. Bu il 1500 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib, eyni zamanda, 7 mindən çox məcburi köçkün ailəsinin mənzillərlə təmin edilməsi nəzərdə tutulub. "Bu il pensiyalar orta hesabla 27 faiz, orta əməkhaqqı 25 faiz artıb", - deyə Prezident bildirib. Dövlət başçısı qeyd edib ki, çətin pandemiya dövründə dünyanın 150 ölkəsi kredit üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Aparılan uğurlu siyasət nəticəsində Azərbaycanın adı bu siyahıda yoxdur. Ölkə rəhbəri onu da vurğulayıb ki, əldə edilən bu uğurlar böyük iqtisadi potensialın hesabına mümkün olub. Dövlət başçısı çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunub.



- Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın hərbi təxribatı nəticəsində şəhidlərimiz olubdur, qan tökülüb, o cümlədən mülki vətəndaş həlak olub. Ermənistan ordusu Tovuz istiqamətində bizim mövqelərimizi, torpaqlarımızın bir hissəsini zəbt etmək üçün namərdcəsinə, qəflətən artilleriya silahlarından hücum təşkil edib və bunun nəticəsində hərbçilərimiz həlak olub, yaralanıb. Dərhal lazımi tədbirlər görülüb və qisas əməliyyatı keçirilib. Qisas əməliyyatı nəticəsində onlarla düşmən, onların texnikası məhv edilib. Yəqin ki, siz də o videogörüntüləri internetdə görmüsünüz, Azərbaycan Ordusu sərrast atəşlə, dəqiqliklə Ermənistanın dayaq məntəqələrini, idarəetmə məntəqələrini və digər hərbi infrastrukturunu necə məhv edir. Biz bunu nəyin hesabına edirik? Müasir silahlar hesabına. Bu silahlar Azərbaycanda istehsal olunmur. Bu silahların qiyməti çox yüksəkdir. Bizim maddi imkanlarımız olmasa, biz onu edə bilməzdik. Bu gün Azərbaycan Xalq Cəbhəsinin gözündə qalan arzusu budur ki, imkanımız olmasın, Azərbaycan yenə də torpaqlar itirsin.

Bizim hərbi qələbəmizi qeyd etmək üçün minlərlə insan küçələrə çıxdı, minlərlə insan dövlətə, orduya dəstək göstərdi. Bu gözəl mənzərə vətəndaş həmrəyliyinin bir rəmzi idi. İnsanların coşqusu və ehtirasları çox müsbət istiqamətdə gedirdi. Mən dərhal göstəriş verdim ki, hüquq-mühafizə orqanları, ilk növbədə, Daxili İşlər Nazirliyi asayişi qorumaq üçün bütün tədbirləri görsün. Yəqin, internetdə görmüsünüz ki, insanlarla bərabər, polis əməkdaşları da gedirdilər. Çünki insanlar avtomobil yolu ilə gedirdilər, orada hansısa qəza baş verə bilərdi. Çox nizamlı şəkildə hara gəldilər? Şəhidlər xiyabanına, ora da gəlməli idilər. Orada öz dəstəklərini ifadə etdilər. Ancaq bəzi çirkin ünsürlər, Azərbaycan Xalq Cəbhəsinin üzvləri bundan istifadə edib iğtişaş yaratmağa cəhd etdilər, parlament binasına soxuldular, orada dağıntılar etdilər. Parlament binasının əldə edilmiş qələbə ilə nə bağlantısı var? Bir də ki, bu, qələbədir, bunu hamı etiraf edir. Ermənistan artıq bunu etiraf etməyə məcburdur. Biz bu günlərdə böyük xarici dəstək də görmüşük. Yəni, xalqın iradəsi öz yerini tapmışdır, bunu bayram etmək lazımdır. Amma girib parlamentin binasının divarlarını, kabinetlərini dağıtmaq, sökmək nəyə lazım idi?! Üçüncü mərtəbəyə qədər qalxmışdılar. Kabinetlərin qapılarını, şüşələrini sındırırdılar. Sən gəlmisən burada ali qanunvericilik orqanını dağıtmağa? Bunu kim edə bilər? Düşmən, başqa heç kim.

Öz xalqına, öz Vətəninə bağlı olan adam müharibə gedən vaxtda bunu edər? İndi istintaq gedir. Mən istintaqı qabaqlamaq istəmirəm. Heç müdaxilə etmək fikrim də yoxdur. Amma hər şey göz qabağındadır. İndi bəzi görüntülər də ictimailəşdirilib. Görün, bu adamlar hansı miskin və aciz gündədirlər. Hanı bunların "hünəri", hanı bunların "qəhrəmanlığı"? İndi qanun qarşısında cavab verəcəklər. Mən demişəm, bir daha da demək istəyirəm, bu cinayətləri, bu əməlləri törədən heç bir adam məsuliyyətdən qaça bilməyəcək. Bir-bir hamısını tapacağıq və bir-bir tapırıq. Son nəfərinə qədər tapıb məsuliyyətə cəlb edəcəyik. Qoy, xalq onları tanısın. Qoy, onların valideynləri utansınlar - onlar kimi böyüdüblər? Hansı manqurtları böyüdüblər? Ona görə ictimaiyyət bunu bilməlidir. Təkcə onlar yox, onların valideynləri də məsuliyyət daşıyırlar. Təbii ki, bu, mənəvi məsuliyyətdir. Amma qoy, valideynləri də utansınlar. Bu, nəyi xatırladır? Yəqin ki, siz də xatırlayırsınız, 1992-ci ili. Azərbaycan Xalq Cəbhəsinin hərbi çevrilişi parlamentin binasının zəbt edilməsi ilə başlamışdı və orada da başa çatmışdı. O kadrlar da var, yəqin ki, televiziyalar onu göstərəcəklər. O vaxt Azərbaycan hakimiyyəti bunun qabağında dura bilmədi. Çünki cəsarət, qətiyyət göstərmədi, iradə və ən önəmlisi, xalqın dəstəyi yox idi. Ona görə orada bir dəstə adam yığışan kimi, oraya basqın edən kimi hakimiyyət tamamilə dağıldı. Hərə bir tərəfə çəkildi, gizləndi, biri evində, biri harada. Hakimiyyətsizlik hökm sürürdü. Eyni ssenari üzrə bunlar bu dəfə də bunu etməyə çalışırdılar. Eyni ssenari üzrə, parlamentin binasını zəbt etmək, orada öz hakimiyyətini elan etmək. İndi istintaq materialları bunu artıq göstərir. Yenə də deyirəm, qabaqlamaq istəmirəm, Azərbaycan xalqı hər şeyi biləcək. Faktiki olaraq hakimiyyəti qanunsuz yollarla zəbt etmək istəyirdilər. Amma mən dedim, onların fikri o illərə getməsin. İndi Azərbaycan o Azərbaycan deyil.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Ermənistanın hərbi infrastrukturunun dəqiqliklə vurulması müasir silahlar hesabına mümkün olub

(Əvvəli 1-ci səhifədə)




Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü iqtidarı var, Azərbaycan iqtidarının güclü iradəsi var və ən önəmlisi xalqın dəstəyi var. Mən bu günlərdə hər gün bəlkə də minlərlə məktub alıram. O məktublarda vətəndaşlar öz dəstəyini ifadə edirlər, həmrəylik ifadə edirlər, mənim çıxışımdan sonra orduda xidmət etmək istəyirlər. Mən demişdim, orada şüşələri qıranlar getsinlər, yazılsınlar orduya. O gün cəmi 150 nəfər könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin məntəqələrinə gəlmişdir. Amma mənim sözlərimdən sonra heç bir həftə keçməyib, artıq əlli minə yaxın insan yazılıb. Əlli minə yaxın Azərbaycan vətəndaşı, - onların mütləq əksəriyyəti gənclərdir, - Vətəni qorumaq üçün artıq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib, öz adlarını, ünvanlarını veriblər. Mən onlara təşəkkür edirəm. Bax, budur Azərbaycan xalqı, budur Azərbaycan gənci. Parlamentin şüşələrini, qapılarını qıran yox. Budur, bu gün Qarabağda ölümə getməyə hazır olan Azərbaycan gənci.

Mən bir daha onlara, onların valideynlərinə təşəkkürümü bildirirəm. Onlar xalqımız, dövlətimiz üçün dəyərli övladlar yetişdiriblər. Bir daha demək istəyirəm ki, Azərbaycan Ordusu bu gün istənilən vəzifəni icra edə bilər. Azərbaycan Ordusu tam komplektləşdirilib və əgər əlavə canlı qüvvə lazım olarsa, əlbəttə ki, biz bundan istifadə edəcəyik.

Səfərbərliyin elan edilməsinə hələ ki, heç bir ehtiyac yoxdur. Əgər lazım gələrsə, bu da olacaq. Mən demişəm, bir daha demək istəyirəm, - çox da dərinə getmək istəmirəm, - biz bilirik, nə vaxt, necə, nəyi etmək lazımdır. Biz öz siyasətimizdən əl çəkməyəcəyik. Bizim siyasətimiz ədalətli siyasətdir. Bizim siyasətimiz həm beynəlxalq hüquqa, tarixi ədalətə söykənir və biz istədiyimizə nail olacağıq.

Mən bir məsələyə də toxunmaq istəyirəm. İstəyirəm ki, Azərbaycan xalqı bunu bilsin. İndi, əlbəttə ki, məlumat məkanı çox genişdir. Biz bu günlərdə heç vaxt olmadığı qədər, - nə 1990-cı illərin əvvəllərində ki, müharibə gedirdi, nə də başqa dövrdə, - çox güclü beynəlxalq dəstək gördük. Təbii ki, ilk dəstək, ilk qardaşlıq addımı qardaş Türkiyədən gəldi. Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan birmənalı şəkildə Azərbaycanı dəstəklədi, bildirdi ki, Azərbaycanın yanındadır. Bildirdi ki, Azərbaycan və Türkiyə, iki qardaş ölkə hər zaman bir yerdə olacaqlar. Bu dəstəyə görə mən öz qardaşıma dərin təşəkkürümü bildirmək istəyirəm. Bu günlərdə biz daim təmasdayıq. Mənə telefonla zəng edib, dəstək ifadə edib, şəhidlərimizin həlak olması ilə əlaqədar başsağlığı verib. Deyib ki, biz sona qədər bir yerdəyik.

Mən də hər zaman dostum, qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana böyük hörmət göstərmişəm. Türkiyə xalqına mənim məhəbbətim heç kəs üçün sirr deyil. Dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkələr yoxdur. Bu, həm tarixə, bizim ortaq, etnik köklərə, həm də bugünkü siyasətə əsaslanır. Eyni zamanda, Türkiyənin digər yüksək vəzifəli rəsmi şəxsləri, o cümlədən Müdafiə naziri, Xarici İşlər naziri, parlament üzvləri, ictimai xadimlər Azərbaycana birmənalı dəstək göstərmişlər.

Bir çox ölkələr fərdi qaydada rəsmi şəxslər səviyyəsində dəstək göstərmişlər. Ona görə də mən onlara minnətdaram. Beynəlxalq təşkilatlar, ilk növbədə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Azərbaycana dəstək göstərmişdir. Bu təşkilatda beş ölkə fəaliyyət göstərir - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan. Onlar bu təşkilatın üzvləridir və Azərbaycana birmənalı dəstək göstərmişlər. Mən də cavab məktublarımda bu ölkələrin dövlət başçılarına öz təşəkkürümü bildirmişəm. Bu məktublar mətbuatda dərc edilib.

İslam Əməkdaşlıq Təşkilatı bizə birmənalı dəstək oldu. Orada 57 ölkə birləşir. Bu, həm haqq-ədalətə verilən, həm də Azərbaycana verilən dəstəkdir. Çünki siz də bilirsiniz, mən İslam həmrəyliyinin gücləndirilməsi üçün nə qədər səylər göstərirəm. Azərbaycan nə qədər çalışır ki, bəzi İslam ölkələri arasında olan hansısa ixtilaflar aradan qaldırılsın, yaxud da yumşalsın ki, ilk növbədə, biz öz evimizdə qayda-qanun, həmrəylik, dostluq yaradaq. Biz gərək, ilk növbədə, müsəlman aləmində birlik yaradaq. Çünki əgər burada birlik olmasa, onda bizim taleyimiz necə olacaq? Müsəlman ölkələri bunu qiymətləndirir. Bütün ölkələr - 57 müsəlman ölkəsi bizi dəstəklədi. Baxmayaraq ki, bu ölkələrin bəzilərində erməni icmaları kifayət qədər böyük imkanlara malikdir. Baxmayaraq, bu ölkələrdə erməni rəsmi orqanları, onların səfirlikləri gecə-gündüz çalışırlar ki, bəzi müsəlman ölkələrini öz tərəfinə çəksinlər. Biz bunu görürük. Bəzən səfərlər edirlər. Bəzən dövlət başçısı səviyyəsində müsəlman ölkələrinə gedirlər. Biz hər şeyi izləyirik, baxırıq, baxmalıyıq. Bəzən, bəzi müsəlman ölkələrinin dövlət başçıları Ermənistana rəsmi səfərlər edirlər. Əlbəttə ki, bu, bizi haqlı olaraq narahat edir. Bunu açıq şəkildə deyirik, həmrəylik sözdə yox, əməldə olmalıdır.

Müsəlman məscidlərini dağıdan Ermənistanla hansı əlaqələr ola bilər? Açın baxın internetdə, görün Ağdam məscidi nə gündədir, Şuşa məscidi nə gündədir, digər şəhərlərdəki məscidlər nə gündədir, onları söküblər. Bu azmış kimi, ermənilər orada heyvan saxlayırlar, hətta bizim müqəddəs ocaqlarımızı təhqir edirlər. Kim edir bunu? Ermənistan. Bu məscidlər təkcə bizim deyil, bütün müsəlman aləminə məxsusdur. Mən sual verirəm, necə ola bilər ki, belə çirkin əməllər törədən bir ölkə ilə hansısa əlaqələr olsun, hansısa dostluq haqqında danışsınlar? Hansı dostluq ola bilər? Ona görə, mən bir daha demək istəyirəm, Ermənistan çalışır ki, onları öz tərəfinə çəksin. Ancaq, ilk növbədə, o ölkələrin xalqları buna imkan verməyəcəklər və verməməlidirlər. Əgər görsələr ki, bu ölkələrin hakimiyyəti öz dini mənsubiyyətini ancaq dildə ifadə edir, o ölkələrin vətəndaşları öz sözünü deməlidir. Azərbaycanla həmrəy olmalıdır. Necə ki, biz bütün müsəlman ölkələri ilə həmrəyik, onlardan da eyni münasibət gözləyirik. Xüsusilə belə həssas günlərdə, həssas məsələdə ki, Ermənistan bizə hücum edib, bizim mövqelərimizi zəbt etmək istəyir, bizim hərbçilərimizi, mülki vətəndaşları öldürüb, kəndlərimizi dağıdıb. Mən dünən Sərəncam imzaladım, Tovuz rayonunda zərər çəkmiş bütün binalar, - indi komissiya təşkil olunub, - inventarlaşdırılacaq və qısa müddət ərzində biz bütün evləri bərpa edəcəyik. Amma insanların həyatını bərpa etmək olarmı? 76 yaşlı ağsaqqalın həyatını bərpa etmək olarmı? Bunu kim edib? Ermənistan edib. Əfsuslar olsun ki, özünü bizə dost kimi təqdim etmək istəyən bəzi ölkələr onlara bu mərmiləri veriblər ki, Azərbaycan əsgərini, Azərbaycan vətəndaşını, uşağı, qocanı Xocalıdakı kimi öldürsünlər. O vaxt bizim gücümüz yox idi. Bizim deyəndə, əvvəlki iqtidarın, hansı ki, bu faciə vaxtı Azərbaycana rəhbərlik edirdi. Açıq danışmalıyıq, bu, belədir. Azərbaycan xalqı, Azərbaycan vətəndaşları hər şeyi bilməlidir. Ona görə İslam Əməkdaşlıq Təşkilatının bu qərarını biz çox yüksək qiymətləndiririk. Qoşulmama Hərəkatı da, - burada 120 ölkə cəmləşir, - birmənalı şəkildə Azərbaycanı dəstəklədi.

Mən sizin və Azərbaycan xalqının diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. Yəqin siz eşitmişiniz ki, biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə eləsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-yə 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-də üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni, altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər. Bu, bir. İkincisi, qoy Ermənistanın qorxaq rəhbərliyi yadına salsın ki, qaçıb yardım almaq istədiyi KTMT-ni necə təhqir etmişdi, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs eləmişdi. Belarus nümayəndəsinin KTMT-yə yeni baş katib təyin olunmasının əleyhinə çıxmışdı. Bir il ona imkan vermədi ki, işə başlasın. Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq.

Beləliklə, bütün bu məsələlər bir daha onu göstərir ki, bu gün Azərbaycan həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm mənfur qonşu ilə mübarizədə çox böyük bir gücə çevrilib. Bunu biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Azərbaycan xalqı tam əmin ola bilər ki, Azərbaycanın müstəqilliyi, azadlığı, insanların rifahı və ölkəmizin güclənməsi daim diqqət mərkəzində olacaq. Bizim üçün bir nömrəli milli məsələ - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə demişəm - beynəlxalq təşkilatlarda, beynəlxalq kürsülərdən, ölkə daxilində. Çox da təkrarlamaq istəmirəm, amma bir şeyi istəyirəm Azərbaycan xalqı bilsin ki, bu, milli məsələdir. Biz bu məsələni elə həll etməliyik ki, bu həll Azərbaycan xalqını tam təmin etsin. Hər hansı bir yarımçıq həll bizə lazım deyil. Çünki bu, müvəqqəti olacaq. Yarımçıq, sadəcə, mərhələ ola bilər. Ancaq məsələnin həlli tam olmalıdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. İşğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır. Budur, mənim siyasətim və bu, siyasətimin bir hissəsidir, o hissəsi ki, bu haqda hələ ki, açıq danışmaq olar.

Mənim fikrim nədən ibarətdir, siz hamınız yaxşı bilirsiniz. Azərbaycan öz tarixi keçmişinə sadiq olan ölkədir və tarixi yaxşı bilirik. Gələcəyi necə görmək istəyirik, onu da bilirik və Azərbaycan xalqı da bilir. Ona görə, ölkəmizin ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb, olmamalıdır və olmayacaq. Biz öz doğma torpaqlarımıza qayıtmalıyıq və qayıdacağıq. İnşallah, ondan sonra orada sizinlə bir yerdə görüşüb bu günləri də xatırlayacağıq. Bir daha sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

*Ön xətdən reportaj*

# "Düşmənə sarsıdıcı zərbələr endirdik"



*Erməni təcavüzkarlarının xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi siyasət nəticəsində tariximizin səhifələri faciələr, qanlı hadisələrlə doludur. Hər səfərində yaranmış siyasi vəziyyətdən istifadə edən mənfur qonşumuz Azərbaycan torpaqlarında "böyük Ermənistan" dövləti yaratmaq istəyib. Niyyətinə çatmaq üçün ötən əsrin sonlarında düşmən yenidən işğalçılıq siyasətinə geniş vüsət verdi və bu zaman xalqımıza qarşı etnik təmizləmə və soyqırımı törətməkdən belə çəkinmədi. Bunun bariz nümunəsi olaraq ermənilərin Xocalıda törətdikləri soyqırımı göstərmək olar. Bu soyqırımı insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Bu soyqırımı müharibə şəraitində dinc əhalinin xüsusi vəhşiliklə öldürülməsidir.*

Bu gün də düşmən öz niyyətlərindən əl çəkmir, yaranmış hər bir əlverişli şəraitdən öz məkrli niyyətini həyata keçirmək üçün istifadə etmək istəyir. Atəşkəs elan edilməsindən sonra düşmənlə təmas xəttindəki ən böyük qarşıdurma 2016-cı ilin aprelinə təsadüf etdi. Düşmən intensiv olaraq ön xətt mövqelərimizi və yaşayış məntəqələrimizi artilleriya qurğuları ilə atəşə tutdu. Ancaq ordumuz əks-həmlə ilə təxribatın qarşısını aldı. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Madagiz kəndi istiqamətində bəzi mövqelər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Goranboy rayonunun Gülüstan kəndi düşməndən azad olundu. Məğlub olan düşmən 2018-ci ildə də öz çirkin niyyətlərini həyata keçirmək istədi. Bu dəfə də ordumuzun qüdrəti və peşəkarlığı nəticəsində əkshəmlə əməliyyatı ilə düşmən Günnüt kəndindən geri çəkilməyə məcbur edildi. Məqsədinə nail ola bilməyən ermənilər 2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Azər-





baycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular. Döyüşlər zamanı general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov... kimi oğullarımız Vətənimizin azadlığı uğrunda şəhidlik zirvəsinə yüksəldilər. Ancaq düşmən Vətənimizin müdafiəsində dayanan igidlərimizin sayıqlığı nəticəsində öz niyyətinə nail ola bilmədi.

Biz də həmin döyüşlərdə iştirak edən bir qrup hərbi qulluqçu ilə yaxından tanış olmaq, dövlət sərhədində gedən döyüşləri onların dilindən eşitmək üçün düşmənlə təmas xəttində igid oğullarımızın müqəddəs məkanı olan səngərdəyik... Burada düşmən təxribatının qarşısını mətinliklə alan əsgərlərimizlə tanış oluruq. Hər birinin gözlərində Vətənə olan sonsuz məhəbbət, düşmənə olan nifrət hiss olunur. İlk olaraq söhbətə qoşulan əsgər Rəşid Qənizadə bildirir ki, düşmənin təxribatı zamanı döyüş növbətçisi idi. "Növbədə olduğum zaman düşmən qüvvələri mövqelərimizi artilleriya atəşinə tutdu. Dərhal yuxarı komandanlığa məruzə etdim. "Həyəcan" siqnalı ilə düşmənin qəfil artilleriya atəşinin qarşısını almaq üçün səfərbər olduq. Hər kəs səngərdə öz mövqeyini tutdu və döyüş başladı. Düşmənin qəfil artilleriya atəşi bizi təəccübləndirmədi. Əksinə, sevincimizin həddi-hüdudu yox idi. Hər birimiz düşməni döyüş meydanında məhv etmək, Vətənimizin azadlığı uğrunda şəhid olanların qisasını almaq əşqi ilə alışıb yanırdıq. Bu bizim üçün ölüm-qalım mübarizəsi idi. Həyatın bu sınağından da üzüağ, alnıaçıq çıxdıq. Təxribat zamanı silahdaşlarımızdan şəhid olan və yaralananlar da oldu. Üzərində gəzdiyimiz torpaq şəhid qardaşlarımızın qanı ilə suvarılıb. Onlar Vətənimiz üçün döyüşərək qəhrəmancasına həlak oldular. Bu gün düşmənlə təmas xəttində nisbi sakitlik hökm sürə bilər. Ancaq onların qanı yerdə qalmayacaq. Bundan sonrakı xidmətimi də elə quracam ki, Vətənimiz qarşısında övladlıq borcumu layiqincə yerinə yetirim".

- Fəxr edirəm ki, Azərbaycan Ordusunun əsgəriyəm, - deyə əsgər Vüsal Abbasov söhbətə başlayır. - Hərbi xidmətə gəldiyim ilk gündən komandir heyətinin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Keçirilən hər məşğələnin bizim mahir döyüşçü kimi formalaşmağımızda müstəsna rolu vardır. Məşğələlər zamanı mənimsədiklərimizi düşmən üzərində tətbiq etmək imkanı yarananda özümüzü itirmədik. Komandirimizin əmri ilə düşmən təxribatının qarşısını aldıq. Fitnəkar niyyətli ermənilər istədiklərinə nail ola bilmədilər. Ancaq düşmən məğlubiyyəti ilə barışmaq istəmirdi. Artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular. Bildiyimiz kimi, döyüş itkisiz olmur. Ancaq Vətən onun uğrunda şəhid olanlarla yüksəlir. Bu gün şəhadət şərbətini dadmaq bizə qismət olmadı. Vətənimiz üçün canını fəda edən silahdaşlarımız hər zaman qəlbimizdə yaşayacaqlar. İnanırıq ki, tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə onların qisasını alacaq, işğal altında olan torpaqlarımızı azad edəcəyik.

Əsgər Qədir Babayev həmin günü belə xatırlayır. "2020-ci il 12 iyul tarixində günorta saatlarında düşmən təxribata əl ataraq mövqelərimizi atəşə tutdu. Rəhbərlik tərəfindən qarşımıza qoyulan tapşırıqlar uğurla icra edildi. Əsgər yoldaşlarımızla, komandirlərimizlə bir-birimizə arxalanaraq düşməni susdurduq. Düşmənin hər hansı əkshəmləsinə imkan vermədik. Bədxah niyyətin qarşısı vaxtında alındı. Lakin terrorizmi dəstəkləyən, vandalizmə xidmət edən düşmən ordusu daha iriçaplı silahlardan, o cümlədən artilleriyadan istifadə etməyə başladı. Ordumuzun cavabı daha şiddətli və sarsıdıcı oldu. Hər tərəfdən düşməni atəşə tutmuşduq. Düşmən mövqelərini izləyərkən onların çaş-baş qaldıqları açıq-aşkar hiss olunurdu. Onların mövqeləri dəqiq zərbələrlə yerlə-yeksan edilirdi. Düşmən layiq olduğu cavabı aldı. Həmin günlərdə yaşadıqlarımızı sözlə ifadə etməkdə çətinlik çəksəm də, onu deyə bilərəm ki, komandirlərimizin rəhbərliyi altında düşmən həmləsini dəf edən əsgər yoldaşlarımda böyük ruh yüksəkliyi var idi. Təəssüf ki, bu döyüşlərdə əsgər və yüksək rütbəli hərbçilərimiz də şəhid oldular. Onların ruhları qarşısında baş əyirik. Şəhidlərimiz qanları bahasına bu Vətəni qorudular, onların bu fədakarlığı daim ürəklərdə və yaddaşlarda yaşayacaq. Onlarla hər bir azərbaycanlı fəxr edir və qürur duyur. Şəhid general-mayor Polad Həşimov bölməmizi tez-tez ziyarət edər, qayğı və problemlərimizlə maraqlanardı. Bizi Böyük Qələbəyə kökləyirdi. Fəxarət hissi keçirirəm ki, Polad Həşimov kimi qəhrəman sərkərdəmizi tanımışam. Aprel döyüşlərində iştirak edən tanışlarım şəhid generalımız haqqında mənə çox bəhs ediblər. Onun 2016-cı ilin Aprel döyüşləri vaxtı göstərdiyi şücaətdən danışıblar. Tabeliyindəki şəxsi heyətin daim yanında olan general-mayor Polad Həşimov Tovuzda vəziyyətin gərgin olduğu vaxtda da ön xətdə idi, bizlərlə idi. O, ordumuzun düşmənə layiqli cavab verməyində əsas pay sahiblərindən biri oldu. Digər şəhid olan hərbi qulluqçulara rəhmət, yaralılara şəfa diləyirəm. Sonda onu qeyd etmək istəyirəm ki, ordu sıralarında xidmət edən hərbi qulluqçu olaraq, Ali Baş Komandanımızın "İrəli" əmrinə hər zaman hazıram".

Əsgər Sabir Nəcəfovun düşmənə olan nifrəti işğal altında



olan ərazilərimizə baxan gözlərindən sezilir. "Böyüyüb boyabaşa çatdığımız qəhrəmanlar diyarı olan Azərbaycanımızın tarixi və əzəli ərazisi olan Dağlıq Qarabağ və digər yeddi rayonumuz artıq uzun illərdir düşmən tərəfindən işğal edilib. Düşmənin hərbi təcavüzü nəticəsində xeyli sayda insan öz ata-baba yurdundan didərgin düşüb.Tarixə nəzər salsaq düşmənin Xocalıda törətdiyi vəhşiliklər, həmçinin digər rayonlarımızı işğal edərkən əliyalın həmvətənlərimizin başına gətirilən olmazın işgəncələr hər bir həmyerlimizin qəlbində düşmənə qarşı nifrət, qəzəb hissinə əsas təkan verən amillərdəndir. Komandirlərimiz bizimlə söhbət zamanı səbir etməyin vacibliyini və düşmənə layiq olduğu cavabın veriləcəyi günün uzaq olmadığını qeyd edirlər. Onlar üzərimizə düşən vəzifələrin öhdəsindən hər zaman layiqincə gəlməyimiz üçün hərbi biliklərimizin artırılmasının zəruriliyini xüsusi vurğulayırlar. Qisas gününə hər an hazır olmağın vacibliyi komandirlərimiz tərəfindən diqqətimizə çatdırılır. O gün, iyulun 12-də təcavüzkar düşmən ordusunun dövlət sərhədimizin Tovuz rayonu istiqamətində törətdiyi təxribatın qarşısını alanlar sırasında mən də var idim. Qürurluyam ki, həmin gün komandirlərimizlə birlikdə düşmən həmləsini dəf edərkən hər birimiz çiyin-çiyinə vuruşduq. Komandirlərimiz bir sərkərdətək bizimlə birgə döyüşürdü, bizləri ruhlandırırdı. Bu da öz növbəsində bizim döyüş ruhumuza əvəzolunmaz təkan verirdi. Düşmənin məkrli niyyətinin qarşısını alarkən silahım sanki düşmənə nifrət hayqırırdı. Hücumun qarşısını alarkən silahdaşlarımız sırasında şəhidlik zirvəsinə yüksələn və yaralananlar oldu ki, bu ordumuzun düşmənə cavab atəşinin daha sarsıdıcı olması ilə nəticələndi. Ordumuzun vaxtında və dəqiq cavab atəşləri ilə düşmənin çoxlu sayda texnikası sıradan çıxarıldı, canlı qüvvəsi məhv edildi. Ordumuz düşmənə layiq olduğu cavabı verdi. Döyüşdə qəhrəmancasına vuruşaraq şəhid olan və yaralanan silahdaşlarımızın hər biri biz gənclər üçün qəhrəmanlıq nümunəsi, xalqımız üçün isə əsl vətənpərvərlik simvoludur. Güclü ordumuzun mərd oğulları sayəsində düşmənə vurduğumuz sarsıdıcı zərbələr düşmənin susdurulması ilə nəticələndi. Həmin gün mənim yaddaşımda daim yaşayacaq. Bu gün ordu sıralarında düşmənlə üzbəüz mövqedə xidmət edən əsgərlər kimi hər birimizin ən ümdə arzusu tarixi ərazilərimizi azad etməkdir".

**(Ardı 4-cü səhifədə)**

## Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin nümayəndələrini mükafatlandırıb

Prezident İlham Əliyev Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi ilə əlaqədar kütləvi informasiya vasitələrinin nümayəndələrini mükafatlandırıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının sərəncamlarına əsasən 3 nəfərə Prezidentin fərdi təqaüdü, 2 nəfərə Əməkdar mədəniyyət işçisi, 38 nəfərə Əməkdar jurnalist fəxri adları verilib.

Prezidentin digər sərəncamları ilə bir nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 3 nəfər "Dostluq" ordeni, 67 nəfər "Tərəqqi" medalı, 22 nəfər isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

## Silahlı Qüvvələrin Hərbi Akademiyasında buraxılış mərasimi olub

*İyulun 23-də Silahlı Qüvvələrin Hərbi Akademiyasında müvafiq kursların dinləyicilərinin buraxılış mərasimi keçirilib.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət himni səsləndirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə məruzə ilə çıxış edən Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar nəticəsində əldə olunan nailiyyətlərdən danışıb, Müdafiə naziri adından məzunları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

## Hərbi qulluqçuların ehtiyata buraxılması mərasimi keçirilib

"Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" ölkə Prezidentinin müvafiq sərəncamının icrası ilə bağlı Müdafiə nazirinin əmrinə əsasən Hərbi Dəniz Qüvvələrində xidmətini başa vurmuş matrosların ehtiyata buraxılması mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə xidmət müddətində fərqlənmiş və nailiyyətlər əldə etmiş hərbi qulluqçulara mükafatlar təqdim edilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib

İyulun 22-si axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonunun Ağdam kəndi istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmənin növbəti PUA-sı dərhal aşkar olunaraq məhv edilib.

Qeyd edək ki, bu son iki gündə məhv edilən 3-cü düşmən PUA-sıdır.

### Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.

Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 iyul 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 45 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Düşmənə sarsıdıcı zərbələr endirdik"



(Əvvəli 3-cü səhifədə)

Sonuncu həmsöhbətim əsgər Samir Ələskərov Azərbaycan Ordusunun qüdrətindən danışır. "Azərbaycan Ordusu bu gün ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə, onun müstəqilliyini qorumağa hər an qadirdir. XX əsrin əvvəllərində əsası qoyulan ordumuz sovet ittifaqı dağıldıqdan sonra daha müstəqil şəkildə inkişaf etməyə başlasa da, çoxlu keşməkeşli yollardan keçərək müasir ordu kimi formalaşmışdır. Ümummilli lider Heydər Əliyev ordumuzun gücləndirilməsinin vacibliyini bilirdi. Məhz o hakimiyyətə gəldikdən sonra Qarabağ cəbhəsində ilk və vacib uğurumuz olan "Horadiz" əməliyyatı keçirildi. Hərbi gücün, döyüş qabiliyyətinin artırılması siyasəti bu gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Torpaqlarımızı layiqli şəkildə qorumaq üçün əlverişli şərait yaradılıb. Xalqın sevgisi bizi xidmətə daha da ruhlandırır. Müqəddəs vəzifəni yerinə yetirən, Vətənin keşiyində duran əsgərin döyüş ruhu hər zaman yüksək olmalıdır. Düşmənin törətdiyi təxribat zamanı xalqımız ordumuza dəstəyini çox açıq şəkildə bildirdi. Bu döyüşlər zamanı xalqımızın ordumuza, bizlərə dəstəyini anbaan hiss etdik. Aprel döyüşləri zamanı xalqın orduya dəstəyi haqqında eşitmişdim, lakin bu gün bu dəstəyin əyani şahidi oldum. Bu gün dünya bir daha şahid oldu ki, Azərbaycan xalqı əsgərin qürur mənbəyi, Azərbaycan əsgəri xalqın ümid yeridir. Hər kəs əmin olsun ki, Vətənimiz güvənli əllərdədir, ərazi bütövlüyümüz layiqincə qorunur."

İyulun 12-də Tovuz istiqamətində düşmənin əl atdığı təxribatın qarşısı vaxtında alındı. Döyüşlər zamanı general rütbəsindən sıravi əsgər rütbəsinə qədər hər bir kəs ölkəsinə, xalqına sədaqət nümunəsi nümayiş etdirdi. Xalq öz qəhrəmanlarını unutmur, igid və mərd oğulları ilə hər zaman fəxr edir. Əbəs yerə deyilmir, Vətən sərhəddən başlayır. Sərhədin barıt qoxulu səngərlərdirsə, şəhidlərin və yaralıların olması hər zaman labüddür. Qədim dövrlərdən saysız-hesabsız qəhrəmanlar yetişdirən məmləkətimiz bugünkü varlığını məhz igid oğullarına borcludur. Tovuzdakı məlum hadisələrdə şəhidlik zirvəsinə yüksələn general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayorlar Anar Novruzov və Namiq Əhmədov, baş leytenant Rəşad Mahmudov, gizirlər Yaşar Babayev və İlqar Zeynallı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov, əsgər Elçin Mustafazadə, əsgər Nazim İsmayılov və əsgər Xəyyam Daşdəmirov sözlə ifadə olunmaz şücaət göstərərək ömürlərini Vətən yolunda qurban verdilər, yüksək məqama ucaldılar, şəhidlik məqamına. Xalq onları əsl qəhrəman kimi yola saldı. Gələcək nəsillər onların qəhrəmanlığını özünə örnək bilməli, üçrəngli ay-ulduzlu bayrağımızı daim uca tutmalı, Vətənini göz bəbəyi kimi qorumalıdırlar.

Ordumuza dəstək kampaniyasına qoşulan çoxlu sayda gənclərimiz müdhiş həmrəylik nümayiş etdirdilər. Dünya bir daha şahid oldu ki, Azərbaycan xalqının mübarizə əzmini, yenilməz iradəsini heç kim qıra bilməz. Düşmən öz açıq və gizli havadarlarına arxalana bilər, öz itkilərini ictimaiyyətdən gizli saxlaya bilər, dünyanı aldada bilər. Amma düşmən ölkənin



rəhbərliyi unutmamalıdır ki, dünya bu gün reallığı çox yaxşı başa düşür. Başa düşür ki, Ermənistan ordusu Azərbaycan Ordusu ilə rəqabət apara biləcək qabiliyyətə malik deyil. İstər şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji durumu, istərsə də arsenalında olan müasir silah-sursat baxımından ordumuz düşməni müqayisəyəgəlməz dərəcədə qabaqlayır. Ölkəmizin müxtəlif kütləvi informasiya vasitələri əsgərlərimizin yanında olaraq, onların göstərdiyi rəşadəti, reallığı xalqın və dünyanın diqqətinə çatdırmaqda birbaşa və bilavasitə rol oynadılar. Müdafiə Nazirliyinin Mətbuat Xidməti Tovuz döyüşləri zamanı operativ şəkildə ordumuzun düşmənə endirdiyi zərbələri əks etdirən videogörüntüləri paylaşdı ki, görüntülərdə hərbi texnikaların, hərbi təyinatlı obyektlərin və canlı qüvvələrin məhv edilməsi açıq-aşkar görünür.

Tovuz döyüşləri göstərdi ki, Azərbaycan əsgəri Vətəninə və millətinə sadiqdir və Azərbaycan Respublikasının mənafeyi, suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi etibarlı əllərdədir. Bu gün heç kimin şübhəsi olmasın ki, Azərbaycan əsgəri Silahlı Qüvvələrin Ali Baş Komandanının döyüş əmrini səbirsizliklə gözləyir. Tarix boyu qəhrəman oğullarımız, sərkərdələrimiz qanları ilə tarix yazıblar. Məhz Ali Baş Komandanımızın döyüş əmri ilə Azərbaycan əsgəri yeni tarix yazacaq. Hər birimiz inanırıq ki, sən şərəfli xidmətinlə valideynlərinə və doğmalarına başucalığı gətirəcək, qazandığın uğurlarla rəhbərliyin və xalqın sənə olan etimadını daha da artıracaqsan, Azərbaycan əsgəri! Duruşun vüqarlı, yerişin mətin, yürüşün uğurlu olsun, Azərbaycan əsgəri!

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Ön xətdə düşüncələr*

# Xalqın sizə inamı qalibiyyət bayrağındı, Azərbaycan əsgəri!

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi elan edilmədən başlayan və davam edən müharibəyə səbəb olub. Beynəlxalq təşkilatlar bu münaqişənin həlli ilə bağlı qətiyyətli mövqe göstərmir. Bu səbəbdən də işğalçı dövlət atəşkəsi müntəzəm olaraq pozur, təmas xəttində təxribatlar törədir. İşğalçılıq niyyətinin davamı olan belə təxribatlar münaqişənin həlli prosesini uzadır.*



Ermənistanın silahlı qüvvələrinin bölmələri iyulun 12-də günorta saatlarında Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində böyük siyasi niyyətlə dövlət sərhədlərimizi pozdu. Ağır döyüşlər getdi. Azərbaycan Ordusunun bölmələri bu təxribatın qarşısını qətiyyətlə aldı. Böyük itkilər verən düşmənin hücum planı pozuldu.

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında ermənilərin dövlət sərhədimizi pozmaqla hücuma keçməsini həm siyasi, həm də hərbi baxımdan təhlil etdi. Ölkə başçısı bildirdi ki, "Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbçilərimiz həlak olub və yaralanıb...". Bu fakt təsdiqləyir ki, beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə ikili münasibət bəsləyir, məsələyə yanaşmada ciddi, ədalətli mövqe sərgiləmir. Beynəlxalq təşkilatlar qəbul edilmiş qətnamələrin yerinə yetirilmədiyinə görə niyə işğalçı dövləti ən azından ciddi qınamır? İşğalçı dövlət beynəlxalq təşkilatların nüfuzundan, təsiretmə mexanizmindən çəkinsəydi, Azərbaycanın işğal etdiyi torpaqlarından geri çəkilərdi, münaqişə sülh yolu ilə həll edilərdi, münaqişə həll edilməmiş yeni ərazilər işğal etməyə cəhd göstərməzdi. Azərbaycan Respublikasının Prezidenti iyulun 13-də Təhlükəsizlik Şurasının iclasında beynəlxalq təşkilatları yenə fəaliyyətsizlikdə, təsirsiz və birtərəfli fəaliyyətdə təqsirləndirdi, Azərbaycanın münaqişənin sülh yolu ilə həll edilməsi istəyini də ifadə edərək dedi: "Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik". Bu fikir beynəlxalq təşkilatlara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyət göstərməyin gərəkliyini xatırlatdı. Bu xatırlatmanı "Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır" fikri tamamladı. Dünya ictimaiyyəti də, beynəlxalq təşkilatlar da, "bütün dayaqlarını itirməkdə olan işğalçı Ermənistan" da, onun havadarları da bildi ki, münaqişəni Azərbaycan Ordusunun həll edəcəyi ehtimalı istisna deyil, Azərbaycan Ordusu buna qadirdir...

Azərbaycanın dünya dövlətləri arasında nüfuzunun daha da artmasından narahat olan Ermənistanın təxribata meyillənməsi həm ermənilərin diqqətini daxili vəziyyətin gərginliyindən yayındırmaq, həm də digər siyasi aspektlər üçündü. Azərbaycan Respublikasının Prezidenti qətiyyətlə bildirdi ki, "...hazırda Ermənistanda hökm sürən hərc-mərclik və vəziyyətin böhran həddinə yaxınlaşması onları bu çirkin əməllərə sövq edibdir".

Dünya dövlətləri bilirmi ki, Ermənistanda hakimiyyət dəyişə bilər, ancaq bu münaqişənin həlli ermənilik xislətinin aradan qaldırılması ilə başa çatacaqdır. Beynəlxalq təşkilatlar erməniliyin aradan qaldırılmasına nail ola bilməsələr bunu Azərbaycan Ordusu yerinə yetirəcəkdir. Torpaqlarını işğaldan azad etməklə, beynəlxalq təşkilatlara qəbul edilmiş qərarlara ciddi nəzarət edilməsinin bəşəriliyə xidmət olduğunu, Azərbaycanın timsalında dövlətçiliyin, dövlətin necə qorunduğunu xatırlatmaqla yerinə yetirəcəkdir...

İyulun 14-də minlərlə gənc, Qarabağ müharibəsi veteranı, əlillər Şəhidlər xiyabanında orduya dəstək aksiyasına gəlmişdi. Gözəl missiyaydı. Döyüşlərdə iştirak etmək istəyənlər də, onların niyyətinə xeyir-dua verənlər də döyüşlərin Böyük Qələbəylə tamamlanması niyyətinin əhatəsindəydi. Bu, ordu ilə xalqın birliyinin təzahürüydü. Bu izdihamın mahiyyəti mənə 2016-cı ilin aprel ayının əvvəllərini xatırladırdı. Əsgərləşənlər döyüşən əsgərlərin sırasında olmaq, döyüşmək, işğalı sonlandırmaq, döyüşməyə fiziki imkanı olmasa da, ürəyinin təpəri ilə gələnlər onları uğurlamaq istəyirdi. O vaxtlarda Birinci Qarabağ müharibəsindən tanıdığım 2-ci qrup əlil Sahib Aslanovun dediklərini xatırlayıram: "Bizim köməyimizə ehtiyacı olmasa da, kürəyində xalqın nəfəsini hiss edən əsgərin qələbə ruhu daha da yüksəlir." Sahibin qətiyyətinin eyni bildiyim bu izdihamda dövləti təmsil edən rəsmilər ordu ilə xalqın birliyinin böyük qüvvə olduğunu bildirdilər...

Məlum qətnamələri yerinə yetirilməyən BMT-ni qətiyyətsizlikdə qınayan xalq bu münaqişəni Azərbaycan Ordusunun həll edəcəyinə inanır. Əmindir ki, dünyanın ən güclü ordularından biri olan Azərbaycan Ordusu elan edilmədən başlayan müharibəni sonlandırmağa, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Xalqın bu səviyyədə qətiyyəti 1991-ci ildə rus imperiyasını çökdürmüşdü. Onda xalqın ordusu yox idi. İndi qüdrətli ordusu var. İyulun 14-də Şəhidlər xiyabanındakı izdiham işğalçı dövlətə də, onun havadarlarına da xatırlatdı ki, Azərbaycan Ordusunun əsgərlərinin sayı xalqın əli silah tutanlarının sayı qədərdi. Onu da dərk etdilər ki, Azərbaycanda Vətən müqəddəslik mərtəbəsində qorunur, şəhidlik bu xalqın milli mentalitetinin tərkib hissələrindən biridir. 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanlarının döyüş yolunu davam etdirən hərbçilərimizin hər biri üçün Hərbi and var, Vətənin ululuğu var, dövlətə, dövlətçiliyə sədaqət var. Bu sədaqət həm də döyüşlərlə yerinə yetirilir. Azərbaycan əsgəri döyüşlərdə şəhid olanlarımızın ruhunun nigarançılığını qələbələrin sonlandıracağına inanır və belə xidmət edir.

2017-ci ilin martında ön xətdə Novruz bayramı tədbirində polkovnik Polad Həşimovla söhbətləşmişdik. Qürurla Aprel döyüşlərindən danışmışdı, torpaqlarımızı işğaldan azad etməyə qadir olan əsgərlərimizin vətənsevərliyindən, qorxmazlığından danışmışdı. Onda Aprel döyüşlərindən sonra “Polad” postu adlandırılan mövqedən də söz açmışdım. "O postun döyüşdə iştirak edən hər əsgərin adıyla çağırılması daha ədalətli olardı. Dediyiniz postu Azərbaycan əsgəri adına post kimi tanıyıram, belə də tanınmasını istəyirəm", - demişdi. "Təvazökarlıq Azərbaycan zabitinin mənəvi keyfiyyətlərini nə gözəl tamamlayır!", - demişdim. Gülümsünmüşdü. Ehtirama dirsəklənmiş bu təbəssümün Aprel döyüşlərinin iştirakçılarına ad olduğunu duymaq çətin deyildi...

İyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirov şəhid oldular. İyulun 13-də döyüşlər zamanı Azərbaycan Ordusunun hərbi qulluqçusu baş leytenant Rəşad Mahmudov şəhid oldu. İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında döyüş zamanı müdafiənin ön xəttində olan general-mayor Polad Həşimov qəhrəmancasına şəhid oldu. Düşmən hücumunun qarşısını alarkən polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Mustafazadə şəhid oldular. İyulun 14-də Ermənistanın silahlı qüvvələri tərəfindən Tovuz rayonunun Ağdam kənd sakini Əziz Əzizov yaşadığı evə odlu silah mərmisinin atılması səbəbindən o, aldığı çoxsaylı qəlpə xəsarətləri nəticəsində həlak oldu. İyulun 16-da döyüşlər zamanı Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nazim İsmayılov şəhid oldu.

Ön xətdə Aprel döyüşlərinin iştirakçısı olmuş zabitlərdən polkovnik İlqar Mirzəyevin də şücaətlə döyüşdüyünü eşitmişəm. O döyüşlərin qəhrəmanları bu döyüşlərin də qəhrəmanı oldular. O döyüşlərdə qazi kimi, bu döyüşlərdə şəhid kimi tarix yazdılar…

Şəhidlərin hər birinin dəfni dünya ictimaiyyətinə bir daha xatırlatdı ki, Azərbaycanda şəhidlərə dövlət səviyyəsində ehtiram var və bu ehtiram bəşəri, yaşarı ehtiramdır.

Müharibə başlayalı düşüncələrimizi əsgərlərimizin döyüş əzmi, qələbə ruhu nizamlayıb, əsgərlərimizlə döyüşdən əvvəl də söhbətləşmişik, döyüşdən sonra da. Hər söhbətdə qətiyyətin, dövlətə, dövlətçiliyə sədaqətin eynini görmüşəm. Son illərdə əsgərlərimizdə bir narahatlıq da hiss etmişəm - bütün əsgərləri Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə bir sırada "kaş ki, döyüş əmri biz tərxis olunanacan veriləydi" istəyi də birləşdirir.

Ötən il indi döyüşlər getmiş Ağdam kəndində ezamiyyətdəydim. Döyüş növbətçiliyi aparan əsgərlərin sırasında Ruslan Şərifovla Nurlan Şərifovu orada tanımışdım. Nurlanla Ruslanın əkiz qardaş olması ürəyimi telləndirmişdi. Qardaşlar Qəbələnin Cığatelli kəndindəndirlər. Eyni gündə məktəbə gediblər, eyni sinifdə oxuyublar, eyni gündə hərbi xidmətə çağırılıblar, eyni gündə Hərbi and içiblər, eyni taqımda xidmət edirdilər, eyni vaxtda döyüş növbətçiliyinə gedirdilər. Aqil insanların dediyi kimi, qardaşdırlar, müqayisəyəgəlməz səmimiyyətlə yoldaşdırlar...

Leytenant Nəsimi Həsənli demişdi ki, ikisi də nümunəvi xidmət edir, döyüş növbətçiliyini də yüksək məsuliyyətlə aparır.

Dörd nəfəriydik: leytenant Nəsimi Həsənli, Nurlan, Ruslan, mən. Səmimi söhbətləşirdik:

- 2016-cı ilin Aprel döyüşlərində orta məktəbdə oxuyurduq. Əsgərlərimizin qazandığı qələbələr bizim də qürurumuz oldu. O günlərdə hamı kimi biz də döyüşlərlə nəfəs alırdıq, özümüzü xəyalən əsgərlərimizin sırasında hiss edirdik. Həmin günlər biz yaşda uşaqları əsgərləşdirdi, - Nurlan belə demişdi.

- Onda Ruslan dedi ki, ordumuz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan tamamilə azad edəcək. Sinif yoldaşlarımızın hamısının barmaqları yumruqlaşmışdı. Nurlan dedi ki, biz də yaxın vaxtlarda belə bir ordunun əsgəri olacağıq, - Ruslan belə demişdi.

Düşüncələrimdə Nurlan və Ruslan Şəfiyev qardaşları ilə döyüşün qalibləri kimi söhbətləşirəm...

Azərbaycan Ordusu güclü ordudur. Düşmənin planlı hücumunun qarşısı da alındı, neçə-neçə dayaq məntəqəsi dağıdıldı, onlarla döyüş texnikası, yüzlərlə canlı qüvvəsi məhv edildi...

General-mayor Polad Həşimovla polkovnik İlqar Mirzəyevin böyük izdihamlı dəfnində İkinci Fəxri xiyabana minlərlə insan gəlmişdi. Vətəndaşlıq borcu, mənəvi həmrəylik kimi. General-mayor Polad Həşimovun bacısının dediklərini "Mənim Poladım idi, gördüm ki, hamınızın Poladı imiş", yəni, Vətənin Poladı imiş, dəfndə iştirak edən vətəndaş qızın "Elə bilirəm atamı itirmişəm" təəssüf-ağrısı, gənc oğlanın "Hər birimiz Ali Baş Komandanın döyüş əmriylə əsgərlərimizin sırasında olmağa hazırıq", ... fikirlərini ordunun gücünə, qüdrətinə inam bildim. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında general-mayor Polad Həşimovun orduda çox böyük nüfuzu olduğunu, Aprel döyüşlərində rəşadət göstərdiyini, general-mayor Polad Həşimovun da, polkovnik İlqar Mirzəyevin də qəhrəmanlıqla döyüşdüyünü xatırlatdı. Dəfndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin telefonla şəhidlərin ailələrinə başsağlığı verməsi dövlətin şəhidlərə ehtiramının, şəhidliyə müqəddəs münasibətin təsdiqidir...

...Ermənilər Tovuz rayonu istiqamətindən dövlət sərhədlərimizi pozmağa cəhd etdi. Azərbaycan əsgəri qələbə qazandı. Azərbaycan Ordusunun bölmələri düşmənin neçə-neçə dayaq məntəqəsini dağıtdı, neçə-neçə döyüş maşınını, onlarla əsgərini, zabitini məhv etdi. Ali Baş Komandanın döyüş əmri də qələbə ilə tamamlanacaq!...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

*Tarix olduğu kimi*

# Azərbaycan tarixi daha əhatəli öyrəniləcək




## Qarabağ xanlığı

*Qarabağ xanlığı 1747-ci ildə Nadir şah Əfşarın qurduğu nəhəng imperiya dağılandan sonra yaranmışdı. Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşən Qarabağ xanlığının sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Dağlıq Qarabağı, Zəngəzuru, Bərgüşadı əhatə etməklə Mehri, Tatev və Sisiana qədər uzanırdı. Xanlıq Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi.*

Qarabağ xanlığının banisi Pənahəli xandır (1747-1763).

Pənahəli xan yenicə yaranmış Qarabağ xanlığını möhkəmləndirmək üçün həm daxili, həm də xarici düşmənlərə qarşı uzun və gərgin mübarizə aparmalı olmuşdu. Daxildə onun hakimiyyəti üçün ən böyük təhlükəni Qarabağın xristian məlikləri (Çiləbörd, Gülüstan, Xaçın, Vərəndə və Dizaq) yaradırdı. Nadir şahın hakimiyyəti dövründə nisbi müstəqillik əldə etmiş bu məliklər müstəqil Qarabağ xanlığının yaranmasını düşmənçiliklə qarşıladılar. Təzliklə Azərbaycan torpaqlarını işğal etməyə çalışan Rusiyanın və onun əlaltısı olan Kartli-Kaxetiya çarlığının əlində oyuncağa çevrilən məliklər Qarabağ xanlığını məhv etmək və onun yerində erməni dövləti yaratmaq üçün fürsət axtarırdılar. Lakin Pənahəli xanın yeritdiyi uğurlu siyasət onlara öz niyyətlərinə çatmağa imkan vermədi.

Qarabağ xanlığının yarandığı ilk dövrlərdə Pənahəli xanın fəaliyyətinin mühüm istiqamətlərindən biri xanlığın paytaxt şəhərinin yaradılması idi. Bir tərəfdən daxili çəkişmələr, digər tərəfdən isə qonşu xanlıqların və İranda hakimiyyət uğrunda mübarizə aparan ayrı-ayrı feodal hakimlərin hücum təhlükəsi Qarabağ xanını güclü müdafiə imkanları olan şəhər-qala tikdirməyə məcbur edirdi. Bu qala, eyni zamanda, Qarabağ xanlığının paytaxtı rolunu oynamalı idi. 1748-ci ildə əsası qoyulmuş Bayat qalası məhz bu məqsədə xidmət edirdi. Lakin qala düşmən hücumlarının qarşısını almaq baxımından kifayət qədər etibarlı olmadığına görə 1751-ci ildə daha bir şəhər-qalanın - Şahbulaq qalasının əsası qoyuldu.

Lakin Şahbulaq qalası da cəmi üç-dörd il ərzində Qarabağ xanlığının paytaxtı funksiyasını yerinə yetirə bildi. Bölgədə getdikcə qızışmaqda olan ara müharibələri Pənahəli xanı daha etibarlı, əlverişli və düşmən hücumu üçün əlçatmaz olan yeni bir şəhər-qala tikdirməyə məcbur edirdi. Bu məqsədlə toplanmış məşvərət məclisində Pənahəli xan əyanlara müraciətlə demişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir". Uzun axtarışlardan sonra dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası xanlığın yeni paytaxtı üçün əlverişli hesab edildi və 1753-1754-cü illərdə onun tikintisinə başlanıldı.

1756-1757-ci illərdə xanlığın paytaxtı Şahbulaq qalasından buraya köçürüldü. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırıldı və Qarabağ xanlığının daimi paytaxtına çevrildi.

Şuşa şəhərinin yaranması Qarabağ xanlığının sonrakı hərbi-siyasi tarixində mühüm rol oynadı. Məhz bu qalanın mövcudluğu sayəsində Qarabağ xanlığı çox güclü düşmənlərin hücumlarının qarşısını almış, öz müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdu. Qarabağ xanlığına ilk belə güclü hücum 1757-ci ildə olmuşdu. Məhəmmədhəsən xan Qacar həmin ilin avqustunda 30 minlik ordu ilə xanlığın paytaxtı Şuşaya hücuma başladı. Xatın arxı deyilən yerdə düşərgə salan Qacar ordusu şəhəri mühasirəyə aldı. Bir aydan artıq davam edən mühasirə zamanı Qacar ordusunun Şuşanı ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər uğursuzluqla nəticələndi. Böyük itki verən və aclığa davam gətirməyən düşmən ordusunda döyüş intizamı pozuldu. Nəticədə Məhəmmədhəsən xan Qacar Şuşa qalasını ələ keçirə bilmədi və çox böyük itkilər verərək geri döndü.

Məhəmmədhəsən xan Qacarın məğlubiyyətindən az sonra Şuşa Urmiya hakimi Fətəli xan Əfşarın hücumuna məruz qaldı. Faktiki olaraq Qaradağ, Marağa, Urmiya və Təbriz xanlıqlarının hakiminə çevrilmiş Fətəli xan 1760-cı ildə Azərbaycanın şimal xanlıqlarını da ələ keçirmək qərarına gəlmişdi. O, ilk növbədə, Cənubi Qafqazın açarı hesab edilən Qarabağ xanlığını tabe etməyə cəhd göstərdi. Nadir şahın əsas məmurlarından olmuş və İran taxtını ələ keçirməyə çalışan Fətəli xan Əfşar Cənubi Azərbaycanı ələ keçirdi və öz ordusu ilə Qarabağa gəldi.

Urmiya hakimi öncə Pənahəli xanın yanına mahir elçilər göndərib, onu itaətə və ittifaqa dəvət etdi. Lakin Pənahəli xan elçiləri kobud cavablarla geri qaytardı. Rədd cavabı alan Fətəli xan 30 minlik ordu ilə Qarabağa yürüşə başladı. Lakin onun Şuşanı qəfil hücumla ələ keçirmək planı baş tutmadı. Belə olduqda o, Şuşanı mühasirəyə alaraq şəhərin müdafiəçilərini aclıqla taqətdən salıb öz məqsədinə çatmağa cəhd göstərdi. Fətəli xan Əfşar Pənahəli xandan narazı olan bir çox yerli hakimləri və qonşu xanları öz ətrafına toplayaraq Şuşanın 17 verstliyində olan Xocalı kəndində möhkəmləndi. Beləliklə, müharibə partizan müharibəsi xarakteri aldı. Qara Murtuz bəy və Pənahəli xanın başqa silahdaşları bu yerlərə bələd olmayan düşmən qüvvələrini müvəffəqiyyətlə tələyə salaraq qırırdılar. Şuşanın altı aya qədər davam edən mühasirəsi zamanı Fətəli xanın ordusu ciddi itkilərə məruz qaldı. Sonuncu hücumda Urmiya xanı ölənlər və əsir düşənlərlə birlikdə 2 min nəfər əsgər itirmişdi.

Şuşa şəhərini döyüşlə ələ keçirməyin mümkün olmadığını başa düşən Fətəli xan hiylə əl atdı. O öz qızını Pənahəli xanın oğlu İbrahimxəlil ağaya ərə vermək və bununla da guya düşmənçiliyə son qoymaq istədiyini bildirdi. Uzun sürən döyüşlər zamanı xeyli qüvvə itirmiş və zəifləmiş Qarabağ xanı təklifin hiylə olduğunu başa düşsə də, buna razılıq verdi. Fətəli xanın düşərgəsinə gələn İbrahimxəlil ağa həbs edildi və Urmiyaya aparıldı. Bununla belə, Fətəli xan Əfşar əsas məqsədinə nail olmadı. Şuşa qalasını ələ keçirə bilmədi.

XVIII əsrin 90-cı illərində Ağa Məhəmməd şah Qacar öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq qərarına gəldi. Ancaq onun Qarabağ xanlığını danışıqlar yolu ilə tabe etmək cəhdi heç bir nəticə vermədi. İbrahimxəlil xan Ağa Məhəmməd şahın təklifini nəinki qəbul etmədi, onu hətta hökmdar kimi tanımaqdan imtina etdi.

Məqsədinə dinc yolla çata bilməyən Ağa Məhəmməd şah 1795-ci ilin yayında çox güclü bir ordu ilə Qarabağa hücuma başladı və tezliklə Şuşa şəhərinə yaxınlaşdı. Lakin Qacar ordusunun çox böyük üstünlüyünə baxmayaraq, Şuşanı hücumla ələ keçirmək mümkün olmadı. Bir tərəfdən şəhərin çox güclü hərbi-strateji mövqeyə və müdafiə qurğularına malik olması, digər tərəfdən isə Qarabağ əhalisinin öz doğma torpaqları uğrunda ölüm-dirim savaşına qalxması Qacara öz planını həyata keçirmək imkanı vermədi. Vəziyyəti belə görən Qacar Şuşanı mühasirəyə alıb əhalini aclıq yolu ilə təslim olmağa məcbur etmək qərarına gəldi. Eyni zamanda, düşmən artilleriyası Şuşanın qala divarlarını fasiləsiz atəşə tutmaqla onu dağıtmağa çalışdı. Lakin bu da gözlənilən nəticəni vermədi. Ağa Məhəmməd şah müşahidə etdi ki, toplar qalanın hasarını dağıtmağa qadir deyil. Otuz üç gün davam edən hücumun heç bir nəticə vermədiyini və şuşalıların müqavimətini qırmağın mümkün olmadığını görən Ağa Məhəmməd şah şəhərin mühasirəsindən əl çəkməyə məcbur oldu və öz ordusunu Gürcüstana yeritdi. Doğrudur, Qacar hakimi 1797-ci ildə baş vermiş ikinci yürüşü zamanı Şuşaya daxil ola bildi. Lakin cəmi üç gün sonra yaxın adamları tərəfindən qətlə yetirildi.

Çox güclü düşmən hücumları qarşısında baş əyməməsi Şuşanın şöhrətini artırmaqla yanaşı, onun sürətlə inkişaf etməsinə və əhalisinin sayının artmasına gətirib çıxardı. XVIII əsrin sonlarında burada 17 məhəllə mövcud idi. Bu məhəllələrdən 9-u Pənahəli xanın, 8-i isə onun varisi İbrahimxəlil xanın hakimiyyəti dövründə (1763-1806) salınmışdı. Müasirlər XVIII əsrin sonlarında Şuşada təxminən 2-3 min ev olduğunu qeyd edirlər ki, bu da 10 min nəfərdən çox əhali deməkdir. Şəhər camaatının əsasını vaxtilə Bayat və Şahbulaq qalalarından köçürülənlər təşkil edirdi. Bununla yanaşı, Şuşanın əhalisi içərisində mənşəcə qarabağlı olmayanların da xüsusi çəkisi böyük idi. Hələ Pənahəli xanın hakimiyyətinin ilk dövrlərində Təbrizdən və Ərdəbildən xeyli əhali, xüsusilə sənətkarlar Bayat qalasında yerləşdirilmişdi.

Pənahəli xanın və İbrahimxəlil xanın fəaliyyətində Qarabağ xanlığının ərazisini genişləndirmək və son nəticədə pərakəndə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasəti özünü aydın göstərirdi. Pənahəli xan qonşu xanlıqların da torpaqlarını ələ keçirmək siyasəti yeridirdi. Pənahəli xan Şuşa şəhərinin əsasını qoyduqdan sonra əvvəllər Qarabağ xanlığının tərkibində olan Mehri və Sisian mahallarını, Təbriz xanlığının tərkibində olan Zəngəzur və Qafan mahallarını, habelə İrəvan və Gəncə xanlıqlarına məxsus olan bir çox torpaqları ələ keçirib Qarabağ xanlığının tərkibinə qatmışdı.

Pənahəli xanın ölümündən sonra hakimiyyət başına gəlmiş İbrahimxəlil xanın dövründə Qarabağ xanlığı daha da gücləndi. Pənahəli xanın Qarabağ xanlığının sərhədlərini genişləndirmək siyasəti İbrahimxəlil xan tərəfindən uğurla davam etdirilirdi. Tam müstəqil xarici siyasət yeridən Qarabağ xanlığı dövlətlərarası münasibətlərdə müstəqil tərəf kimi qəbul edilirdi. Heç də təsadüfi deyil ki, İbrahimxəlil xanın 1784-cü ildə Sankt-Peterburq şəhərinə göndərdiyi Musa sultan Rusiya tərəfindən böyük bir dövlətin nümayəndəsi kimi qəbul edilmiş, onun şərəfinə təntənəli qəbul düzəldilmişdi.

Beləliklə, XVIII əsrin 60-80-ci illərində Qarabağ xanlığı yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ən güclü dövlət qurumlarından birinə çevrilmişdi. Bu dövrdə Azərbaycanla qonşu olan Osmanlı Türkiyəsi, İran və Rusiya kimi daha güclü dövlətlər özlərinin Qafqaz siyasətini həyata keçirərkən Qarabağ xanlığının mövqeyi ilə hesablaşmalı olurdular. Bununla belə, XVIII əsrin sonlarından başlayaraq Azərbaycanın şimal xanlıqlarının, o cümlədən Qarabağ xanlığının müstəqilliyi üçün ciddi təhlükə yaranmağa başladı. Ağa Məhəmməd şah Qacarın 1795 və 1797-ci illər yürüşləri, V.Zubovun başçılığı ilə rus ordusunun 1796-cı il yürüşü təzliklə İran-Qacar dövlətinin və Rusiyanın Cənubi Qafqaza münasibətdə daha qətiyyətli addım atacaqlarından xəbər verirdi. Ağa Məhəmməd şah Qacarın ölümündən sonra İran-Qacar dövlətində hakimiyyət uğrunda yeni qüvvə ilə qızışan mübarizədən qalib çıxan Fətəli şah 1797-ci ildə İrəvan qalasını ələ keçirdi və Azərbaycan xanlarından, o cümlədən İbrahimxəlil xandan itaət etməyi tələb etdi. XIX əsrin əvvəllərində Qarabağ xanlığı daha güclü bir düşmənin - Rusiya imperiyasının hücum hədəfinə çevrildi. 1801-ci ildə Şərqi Gürcüstanı ələ keçirən bu dövlət az sonra Azərbaycanın Car-Balakən camaatlığını, İlisu sultanlığını və Gəncə xanlığını işğal etdi. 1804-cü ildə başlamış Rusiya-İran müharibəsinin ilk günlərindən hər iki dövlət Qarabağ xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. İran-Qacar dövlətini Qarabağ üçün daha böyük təhlükə hesab edən İbrahimxəlil xan Rusiyanın himayəsi altına keçməklə öz hakimiyyətini saxlayacağına ümid bəsləyirdi. Elə bu səbəbdən o, Qafqazdakı rus qoşunlarının komandanı general P.Sisianovun Rusiyanın himayəsi altına keçmək təklifini qəbul etdi və danışıqlara başladı. Uzun sürən bu danışıqlar 1805-ci il mayın 14-də Rusiya ilə Qarabağ xanlığı arasında Kürəkçay müqaviləsinin bağlanması ilə nəticələndi. Kürəkçay müqaviləsi ilk baxışdan Qarabağ xanlığının müstəqilliyinin saxlanılması görüntüsü yaratsa da, əslində onun imzalanması həm İbrahimxəlil xan, həm də onun xanlığı üçün ağır nəticələrə gətirib çıxardı. Ruslar 1806-cı ildə İbrahimxəlil xanı ailə üzvləri ilə birlikdə çox böyük amansızlıqla qətlə yetirdilər. 1813-cü ildə İran-Qacar dövləti ilə müharibəni qələbə ilə başa vuran çar hökuməti bundan bir qədər sonra, daha doğrusu, 1822-ci ildə Qarabağ xanlığını ləğv etdi.

**Hazırladı:**
**baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Praqanın mərkəzi körpüsünün üzərindən "Qarabağ Azərbaycandır!" posteri asılıb

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bu aksiya Çexiyada yaşayan azərbaycanlı gənclərin təşəbbüsü ilə reallaşdırılıb. Çex dilində yazılmış poster Çexiyanın Prezident Sarayına, ölkənin Baş Nazirinin iqamətgahına və Nazirlər Kabinetinin inzibati binasına aparan yolun üzərindəki körpüdə yerləşdirilib. Məqsəd ölkənin dövlət rəsmilərinin və yerli ictimaiyyətin diqqətini müstəqil Azərbaycan dövlətinin əzəli torpaqları olan Dağlıq Qarabağ və ona bitişik 7 rayonun hələ də Ermənistanın işğalı altında qalmasına, BMT-nin məlum 4 qətnaməsinə baxmayaraq, hələ də Azərbaycanın ərazi bütövlüyünün təmin olunmamasına cəlb etməkdir.

Qeyd edək ki, sabah Praqada soydaşlarımız Ermənistanın işğalçı siyasətinə və hərbi təxribatlarına son qoyulması, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin olunması tələbi ilə etiraz aksiyası keçirəcək. Aksiya zamanı dövlətimizə, xalqımıza, ordumuza və xarici ölkələrdə Ermənistanın təcavüzkar siyasətinə etiraz səsini ucaldan dünya azərbaycanlılarına dəstək ifadə olunacaq.

## Veteran tankçılarımız torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüş əmrinə hər an hazırdırlar



Biz, Qarabağ müharibəsinin iştirakçıları olan veteran tankçılarımız iki dəfə Sovet İttifaqı Qəhrəmanı, Tank Qoşunları qvardiya general-mayoru Həzi Aslanovun şərəfli döyüş yolunu örnək alaraq onun davamçıları olmağımızla fəxr edirik. Vətənimizin, Ali Baş Komandanın sadiq əsgərləri olan veteran tankçılarımız torpaqlarımızı düşmən tapdağından azad etmək üçün döyüş əmrinə hər an hazırdırlar.

Bu fikirlər Veteran Tankçılar İctimai Birliyinin AZƏRTAC-a daxil olan müraciətində yer alıb.

Müraciətdə bildirilib ki, Qarabağ müharibəsinin döyüşçüləri, eləcə də veteran tankçılarımız Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətindəki yorulmaz, qətiyyətli fəaliyyətini ürəkdən bəyənir və dəstəkləyirlər. "Ölkəmizin inkişafı, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin durmadan artırılması, torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olan Azərbaycan Ordusunun düşmənə öz gücünü göstərməsi qəlbimizdə qürur və inam hissi doğurur. Biz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətənə, xalqa, dövlətə şərəf və ləyaqətlə xidmət etməkdən sonsuz qürur duyuruq. Ulu öndər Heydər Əliyevin müharibə veteranlarına diqqət və qayğı siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev bütün sosial problemlərimizin həllinə daim həssas yanaşır. Veteran tankçılarımız bu diqqət və qayğını hər zaman yüksək qiymətləndirirlər."

"Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Milli Qəhrəmanı tankçı Albert Aqarunovun şərəfinə ucaldılan abidə şəhidlərimizin ruhuna göstərilən yüksək ehtiramın bariz nümunəsidir. Bakıda Milli Qəhrəman Albert Aqarunovun abidəsinin açılışı onun döyüş yoldaşları olan veteran tankçıları fərəhləndirib. Biz Qarabağ döyüşçüləri, veteran tankçılar, qazilər Prezident, Ali Baş Komandamız İlham Əliyevin rəhbərliyi ilə gündən-günə inkişaf edən müstəqil Azərbaycanımızın ərazi bütövlüyü, işğal altındakı tarixi torpaqlarımızın azadlığı uğrunda döyüş əmrinə həmişə hazırıq", - deyə müraciətdə bildirilib.

Veteran Tankçılar İctimai Birliyinin ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməsinin vurğulandığı müraciətdə qeyd olunub ki, birinci tank taborunun veteran döyüşçüləri, qazilər Azərbaycan gənclərinin hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi işində də əllərindən gələn köməyi əsirgəmirlər.

Qeyd edək ki, Qarabağ müharibəsində Azərbaycan Ordusunun ilk tank taboru olan Səbail tank taboru erməni işğalçılarına qarşı döyüşlərdə qəhrəmanlıq, igidlik nümunələri göstərib. Taborun 3 döyüşçüsü - Albert Aqarunov, Şövqiyar Abdullayev və Əsəd Əhmədov (ölümlərindən sonra) Azərbaycanın Milli Qəhrəmanı, Əhməd Mehbalıyev və Qabil Süleymanov (ölümlərindən sonra) isə "Azərbaycan Bayrağı" ordeninə layiq görülüblər. Səbail tank taborunun veteran döyüşçüləri Veteran Tankçılar İctimai Birliyini təsis ediblər.

## İkinci Dünya müharibəsi veteranlarına ərzaq məhsullarından ibarət sovqatlar paylanılıb



*Koronavirus (COVID-19) pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması üçün ölkə rəhbərliyi tərəfindən reallaşdırılan genişmiqyaslı tədbirlər çərçivəsində 245 nəfər müharibə veteranına iyulun 4-dən etibarən ərzaq yardımları paylanılır. Aksiya Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynovun təşəbbüsü ilə həyata keçirilir.*

AZƏRTAC xəbər verir ki, aksiyanın məqsədi koronavirusun yayıldığı dövrdə yaşayışında çətinlik yaranan və ehtiyacı olan qocaman veteranlara dəstək göstərməkdir.

Xatırladaq ki, təşkilat "Evdə qal, həyatları xilas et!" çağırışı ilə veteranlara müraciət edərək, onları və əhalini vətəndaş məsuliyyətini nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət olunmasını tövsiyə edir. Bildirilib ki, Prezident İlham Əliyev hər bir veteranın Vətən qarşısındakı xidmətlərini daim yüksək qiymətləndirir. Dövlət başçısının dəstəyi ilə Böyük Vətən müharibəsi veteranları bu çətin dövrü də arxada qoyacaqlar. Veteranlar özlərini və yaxınlarını qorumalıdırlar.

Qeyd edək ki, aksiya çərçivəsində Respublika Veteranlar Təşkilatının gənclərin hərbi vətənpərvərlik şöbəsinin mütəxəssisi İsmayıl İsmayılov və təşkilatın mətbuat xidmətinin əməkdaşı Şəhla Qarayeva, müvafiq rayon icra hakimiyyətlərinin və rayon veteranlar təşkilatlarının nümayəndələrinin iştirakı ilə Sabirabad, Füzuli, İmişli, Ağdam, Bərdə, Tərtər, Yevlax, Mingəçevir, Ucar, Zərdab və Kürdəmirdə yaşayan İkinci Dünya müharibəsi veteranlarına ərzaq məhsullarından ibarət sovqatlar paylanılıb.



Veteranlarla hər görüşdə təşkilatın nümayəndələri ölkəmizdə tətbiq olunan xüsusi karantin rejiminə ciddi əməl edilməsinin, zərurət yaranmadan digər şəxslərlə təmas qurulmamasının və virusun yayılmasının qarşısının alınmasına dəstək olacaq şəxsi gigiyenik qaydalara riayət edilməsinin vacibliyini vurğulayırlar.

Respublika Veteranlar Təşkilatının nümayəndələri ilə görüşən rayon icra hakimiyyətlərinin rəhbər şəxsləri koronavirus pandemiyasının yayıldığı çətin dövrdə müharibə veteranları üçün başladılan yardım aksiyasını yüksək qiymətləndiriblər.

Qeyd edək ki, "Biz birlikdə güclüyük!" çağırışına əsasən, keçirilən aksiya iyulun sonunadək davam edəcək.

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyə ərazisini qanunsuz yollarla tərk etmək istəyən 36 miqrant saxlanılıb



Türkiyənin İzmir şəhərinin Dikili rayonunda ölkə ərazisini qanunsuz yollarla tərk etmək istəyən 36 miqrant saxlanılıb.

İki ayrı qayıqda saxlanılan miqrantların qanunsuz yollarla yunan adalarına keçmək istədikləri bildirilir. Miqrantlar aidiyyəti qurumlara təhvil veriliblər.

### Əfqanıstanda partlayış nəticəsində güc strukturlarının yeddi əməkdaşı həlak olub



Əfqanıstanın mərkəzində yerləşən Uruzqan əyalətində baş verən partlayış nəticəsində güc strukturlarının azı yeddi əməkdaşı həlak olub.

Bu barədə Tolo News telekanalı əyalətin polis rəisinin nümayəndəsi Zarqay İbadiyə istinadla məlumat yayıb. Onun sözlərinə görə, yol kənarında quraşdırılmış bombanın partladılması nəticəsində həlak olanlar arasında Has Uruzqan rayonunun polis rəisi Dad Qul da var.

Əfqanıstanda sülh prosesinin başlamasına baxmayaraq, "Taliban" hərəkatı ilə hökumət qüvvələri arasında qarşıdurma davam edir. Fevral ayının sonlarında Qətərdə ABŞ və "Taliban" 18 ildən çox davam edən müharibə ərzində ilk sülh sazişi imzalayıb. Saziş 14 ay ərzində xarici qüvvələrin ölkədən çıxarılmasını və tərəflər arasında dialoqun başlamasını nəzərdə tutur. Həmçinin sənədə əsasən "Taliban" hərəkatı və Əfqanıstan hökuməti arasında danışıqlar və atəşkəs rejimi başlanmalıdır.

### Misir ordusu Şimali Sinayda 18 terrorçunu məhv edib



Misir ordusunun Sinay yarımadasının şimalında keçirdiyi hərbi əməliyyatlar zamanı 18 terrorçunun məhv edildiyi bildirilir.

Bir əl-Əbd şəhərinin yaxınlığında baş vermiş atışmada Misir Silahlı Qüvvələrinin iki zabiti həlak olub, dörd hərbçi də yaralanıb.

Misir ordusunun yaydığı məlumatda bildirilir ki, terrorçuların yaşayış məntəqələrinə hücum planı barədə məlumat alan Silahlı Qüvvələr onlara qarşı genişmiqyaslı əməliyyat həyata keçiriblər. Şəhər yaxınlığındakı terror düşərgəsi dağıdılıb. Lakin üzərində partlayıcı qurğuların yerləşdirildiyi kəmər olan bir terrorçu onu partlada bilib.

Ordunun terror düşərgələrinin dağıdılması və onların marşrutlarının kəsilməsi üzrə əməliyyatları davam edir.

### "Əl-Qaidə"nin İndoneziya qanadının lideri 7 il müddətinə azadlıqdan məhrum edilib



Asiyanın ən böyük terror təşkilatlarından biri, "Əl-Qaidə"nin İndoneziyada əsas qanadı hesab olunan "Camaa İslamiyə" qrupunun lideri 7 il müddətinə azadlıqdan məhrum edilib.

56 yaşlı Para Vicayanto həmin terrorçu təşkilata 2009-cu ildən rəhbərlik edib. Onun 2012-2018-ci illərdə Suriya hökumətinə qarşı fəaliyyət üçün gələcək silahlıların hazırlanmasında və maliyyələşdirilməsində əsas rol oynadığı bildirilir.

P.Vicayantonun 2019-cu ilin iyulunda, onun axtarışlarının başlamasından 16 il sonra həbs olunduğu qeyd edilir.

Bildirilir ki, müttəhimin şəxsən məhkəmə zalında iştirak etmədiyi dinləmələr videokonfrans formatında keçirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhid gizir Yaşar Babayevin dünyaya yeni göz açan övladı hospitaldan çıxarıldı

İyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən hücumunun qarşısını alarkən şəhid olan Ağstafa rayon Köçəsgər kənd sakini, 1987-ci il təvəllüdlü gizir Babayev Yaşar Vasif oğlunun 8 illik həsrətdən sonra dünyaya göz açan qız övladı Narinin 21 iyul tarixində "Caspian International Hospital"dan çıxarılma mərasimi keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova və şəhidin ailə üzvləri iştirak etdilər. Mərasimdə çıxış edən Zümrüd Səmədova Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlət başçısı, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərildiyini qeyd etdi, onların mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirildiyini diqqətə çatdırdı.



"Bu gün müstəqil Azərbaycanda şəhid ailələrinə də xüsusi diqqət ayrılır. Bu kateqoriyadan olan insanların mənzil-məişət şəraiti yaxşılaşdırılır. Onlara mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir və müavinətlər ayrılır. Bütövlükdə Azərbaycanda şəhid ailələrinə həm maddi, həm də mənəvi diqqət göstərilir. Bütün bunlar dövlət başçısının şəhid ailələrinə olan diqqət və qayğısının ifadəsidir".

Tibb üzrə fəlsəfə doktoru, uzman doktor mama-ginekoloq Aytən Səfərova bildirdi ki, şəhidin övladının dünyaya gəlməsinə sərf olunan maliyyə vəsaitini Aytən Sonsuzluq Mərkəzinin rəhbərliyi onlara bağışlayıb. Aytən Səfərova onu da qeyd etdi ki, Mübariz, Polad, İlqar, Yaşar kimi oğulları olan Vətən, xalq, dövlət daim var olacaq. Belə vətənpərvər, mərd, cəsur oğullarla fəxr edirik. Bu gün biz onların sayəsində belə rahat yaşayırıq. Biz ömür boyu onlara borcluyuq.

Şəhid Yaşar Babayevin qaynanası Raifə Kərimqızı və yaxınları onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, Birinci vitse-prezidentə, Müdafiə Nazirliyinin rəhbərliyinə öz dərin minnətdarlığını bildirdi.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**



## "Akıncı" pilotsuz hücum uçuş aparatı

Türkiyənin pilotsuz hava sistemləri üzrə istehsalçısı Baykar Makina müəssisəsi tərəfindən Baykar zavodunda "Akıncı" adı altında 4,5 tonluq, ikimühərrikli, orta-məsafəli müasir ağır silahlanmış uçuş aparatı hazırlanıb. Verilən məlumata görə, "Akıncı" aparatı turbovintli mühərriklə təchiz edilib. Uçuş hündürlüyü 12192 metr olan uçuş aparatının daxili asılqanında 900 kiloqrama qədər, fyüzelajın daxilində isə 450 kiloqrama qədər faydalı yük yerləşdirilib.

Pilotsuz uçuş aparatının uçuş çəkisi 4,5 ton, uzunluğu 12,3 metr, hündürlüyü 4,1 metr, qanadlarının açılması 20 metrdir. "Akıncı" pilotsuz uçuş aparatı 1350 kiloqrama qədər yük qaldırmağa qadirdir (900 kiloqramı xarici asılqanda). Uçuş aparatı 24 saatdan artıq uçuşu davam etdirə bilir.

Pilotsuz uçuş aparatının daxilində silahlanma üçün xüsusi yer də ayrılıb. Silahlanmasına ümumi təyinatlı MK-82 idarəolunan bombalar, Roketsan MAM-L TƏİRİ daxil edilməsi nəzərdə tutulub. Türkiyə 500 funtlu MK-82 bombaları üçün lazerli GBS və İNS dəsti də hazırlayıb, hansı ki, dəqiq zərbə endirməyə qadir olacaq.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# "Qələbə ruhumuz yüksəkdir"

*Əsgər Fərid Nuruzadə "N" hərbi hissəsində təlim-məşq keçdikdən, silahların sirlərinə və istismar xüsusiyyətlərinə yiyələndikdən sonra ön xətdə xidmətə başlayıb.*

- Əzizlərim məni hərbi xidmətə təntənə ilə yola saldılar. Atamın dediyi sözləri heç vaxt unutmaram: "Oğul, biz səni ordu sıralarına yola salırıq. Buna çox sevinirik. Çünki bundan sonra sən Vətənə əsgər, mən isə əsgər atası olacam. Getdiyin bu yol ataların, babaların yoludur. Bu yol hər birimiz üçün müqəddəs olduğu qədər də əziz və doğmadır. Bu yolu hamı mərdimərdanə, kişi kimi keçməlidir. Hərbi sirləri dərindən öyrən, bacarıqlı, çalışqan əsgərlərdən ol. Həmişə komandirlərinin əmrinə qulaq as, tapşırıqları məsuliyyətlə yerinə yetir. Xidmətini layiqincə başa vur!".



Doğmalarıma söz verdim ki, məsləhətlərinin hamısına əməl edəcəm. Təlim-məşqlərdə mən də hərbi bilikləri dərindən mənimsəmişəm. Atış çalışmalarında hədəfləri dəqiq vurmağı da öyrənmişəm. Normativləri vaxtında yerinə yetirmişəm. Bir sözlə, əsgər üçün nə tələb olunursa, hamısını öyrənib mənimsəmişəm. Xidmətimin sonuna qədər hərbi bilikləri daha dərindən öyrənəcəm, müxtəlif silahların atış xüsusiyyətlərini də mənimsəyəcəm. Neçə vaxtdır ön xətdə xidmət edirəm. Biz Vətəni qorumaq kimi müqəddəs vəzifənin öhdəsindən bacarıqla gəlirik. Onu göz-bəbəyimiz kimi qoruyuruq. Ermənilər atəşkəs rejimini pozmağa cəhd edəndə dəqiq atəş zərbələri ilə onları geri oturduruq. Döyüş hazırlığımızı daim artırırıq. Yaxşı bilirik ki, qələbələr təlim-məşqlərdən, döyüş hazırlığının yüksək olmasından da asılıdır. Buna görə də daim məşq edir, döyüş hazırlığımızı artırırıq.

Əminlik hissi ilə deyə bilərik ki, əsgər Fərid Nuruzadə və onun əsgər yoldaşları təlim-məşqlərdə hazırlıqlarını daha da artıracaqlar. Özünün dediyi kimi, döyüş hazırlığı artdıqca qələbə ruhu da yüksəlir. Azərbaycan əsgəri verdiyi sözə, içdiyi andа həmişə sadiqdir. "Bu gün bizim üzərimizə böyük və şərəfli vəzifələr düşür. Ən böyük vəzifəmiz isə torpaqlarımızı işğaldan azad etməkdir. Mövqeyimizdə daim ayıq-sayıq dayanırıq. Silahımız döyüşə hazır vəziyyətdədir, barmağımız tətikdədir. Yurdumuzu işğal etmiş erməni qəsbkarlarını məhv etməyə hər an hazır və qadirik. Qələbə ruhumuz yüksəkdir və mən doğmalarımın yanına qalib əsgər kimi qayıtmaq arzusundayam. İnanıram ki, yaxın zamanlarda arzuma çatacağam."

Sağollaşanda əsgər Fərid Nuruzadə dedi ki, xidmətə gələndə verdiyi sözə, içdiyi Hərbi anda həmişə sadiq qalacaq: "Mən Azərbaycan əsgəriyəm".

Biz Fərid kimi əsgərlərimizlə fəxr edirik, onlara güvənirik, inanırıq! İnanırıq ki, döyüş hazırlığını, vərdiş və bacarığını artıran belə əsgərlər Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edəcəklər.

**Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan triatlonçusu Ukraynada qızıl medal qazanıb



Triatlon üzrə Azərbaycan millisi koronavirus pandemiyası ilə bağlı məcburi fasilədən sonra növbəti yarışda gücünü sınayıb.

Yığmamızın üzvü Rostislav Pevtsov Olimpiya məsafəsi üzrə açıq Ukrayna çempionatında iştirak edib.

Bütün rəqiblərini qabaqlayan Azərbaycan təmsilçisi yarışın qalibi olub. Bir müddət əvvəl R.Pevtsov sprint üzrə açıq Ukrayna çempionatında gümüş medal qazanmışdı.

Qeyd edək ki, R.Pevtsov 2019-cu ilin ən yaxşı kişi triatlonçusu seçilib.

## Azərbaycanın və Ukraynanın qadın şahmatçıları rapid növü üzrə yoldaşlıq görüşü keçirib



Azərbaycanın və Ukraynanın qadın şahmatçıları arasında rapid növü üzrə yoldaşlıq görüşü keçirilib.

Komandamız Ukrayna şahmatçılarına 51:49 hesabı ilə məğlub olub.

Qeyd edək ki, komandamızın heyətində Günay Məmmədzadə, Gülnar Məmmədova, Xanım Balacayeva, Türkan Məmmədyarova, Ülviyyə Fətəliyeva, Nərgiz Umudova, Nərmin Xələfova, Zeynəb Məmmədyarova, Xəyalə Abdulla və Gövhər Beydullayeva mübarizə aparıblar.

## "Olimpiya Oyunları - Uğur hekayələri" mövzusunda yazı müsabiqəsinin qalibləri müəyyənləşib

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) 22 iyul - Milli Mətbuat Günü münasibətilə "Olimpiya Oyunları - Uğur hekayələri" mövzusunda yazı müsabiqəsinin qaliblərinin adları açıqlanıb.

MOK-dan bildiriblər ki, müsabiqəyə idmançıların mübariz və cəsarətli addımları ilə müşayiət olunan həyat yolundan, Olimpiya Oyunlarına qatılan idmançıların uğur hekayələrindən bəhs edən araşdırma yazılar təqdim edilib.

Münsiflər heyəti Sənan Abdullayevin (Xəzərxəbər.az) boksçu Fuad Aslanovdan bəhs edən "Afina kəşfiyyatçısı" yazısını birinci yerə layiq görüb. Sahib Əsədbəylinin (Kaspi.az) İlham Zəkiyevə (cüdo) həsr olunan "Zirvənin yolunu gözüyumulu tapan əsl qəhrəman" yazısı və Səbuhi Musayevin (Oxu.az) Şahin İmanova həsr olunan "Karyerasını zədə və Olimpiada medalı ilə bitirən boksçunun hekayəsi" məqaləsi ilk üçlükdə yer alıblar.

## Sambo üzrə Avropa çempionatının noyabrda keçirilməsi planlaşdırılır



Sambo üzrə Avropa çempionatının Rusiyanın Yekaterinburq şəhərində bu ilin noyabrın 27-dən 29-dək keçirilməsi planlaşdırılır.

Bu barədə Beynəlxalq Sambo Federasiyasının (FIAS) mətbuat xidməti məlumat yayıb.

Qeyd edək ki, mayın 21-dən 25-dək keçirilməsi nəzərdə tutulan Avropa çempionatı koronavirus pandemiyası səbəbindən sentyabra təxirə salınmışdı. Hazırda FIAS Avropa çempionatını noyabr ayında keçirmək niyyətindədir.

Xatırladaq ki, ötən il təşkil olunan Avropa çempionatında Azərbaycan samboçuları 2 bürünc medal qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Xəlilov Elnur Yaşar oğluna, kiçik çavuş Məhərrəmova Svetlana Bayram qızına və baş əsgər Xıdırov Turan Əsgər oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 455
Nüsxə 3960